UOT 338.43

*Anar Fazil oğlu ABBASOV*
*Azərbaycan Kooperasiya Universiteti,*
*iqtisad elmləri doktoru*

# COVİD-19 PANDEMİYASININ QLOBAL ƏRZAQ TƏHLÜKƏSİZLİYİNƏ VƏ KƏND TƏSƏRRÜFATININ İNKİŞAFINA TƏSİRİ

*Xülasə*

Məqalədə COVİD-19 pandemiyasının ərzaq təhlükəsizliyinə və kənd təsərrüfatının inkişafına təsiri öyrənilmiş, adı çəkilən pandemiyanın ərzaq bazarlarına təhdidləri araşdırılmışdır. Qeyd edilir ki, iqtisadi sərhədlərin bağlanması məhsulların hərəkətini çətinləşdirir, iş yerlərinin bağlanmasına, əhalinin gəlirlərinin səviyyəsinin aşağı düşməsinə gətirib çıxarır. Bu baxımdan pandemiyanın doğurduğu problemlər ərzaq təhlükəsizliyi və kənd təsərrüfatı formatında geniş aspektdə araşdırılmışdır.

**Tədqiqatın məqsədi** – COVİD-19 pandemiyasının ərzaq təhlükəsizliyinin təmin edilməsinə və kənd təsərrüfatına təsirini qiymətləndirməkdən ibarətdir.

**Tədqiqatın metodologiyası** – tədqiqat işində müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, sistemli yanaşma, analiz və sintez metodlarından istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – COVİD -19 pandemiyası ərzaq bazarının bütün aspektlərini əhatə etdiyindən bu zərərli tenndensiyanın ərzaq təhlükəsizliyinə və kənd təsərrüfatının inkişafına təsirinin müəyyənləşdirilməsinə çalışılmışdır.

**Tədqiqatın nəticəsi** – nəticələr belə qənaətə gəlməyə əsas verir ki, COVİD-19 pandemiyası və onun doğurduğu neqativ tendensiyalar bütün səviyyələrdə ərzaq təhlükəsizliyinin təmin edilməsinə əhəmiyyətli dərəcədə təsir edir.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – məqalədə COVİD-19 pandemiyasının zərərli təsirləri, istər milli və istərsə də beynəlxalq aspektdə ərzaq təhlükəsizliyi məsələləri araşdırılmışdır. Məqalənin elmi yeniliyini pamdemiya şəraitində ərzaq təhlükəsizliyinin təmin edilməsinin və kənd təsərrüfatının inkişaf prioritetlərinin müəyyənləşdirilməsi təşkil edir.

***Açar sözlər: pandemiya, qloballaşma, qlobal ərzaq təhlükəsizliyi, kənd təsərrüfatı məhsullarının idxalı, ixracı.***

## *Giriş*

XX əsrin sonlarından etibarən beynəlxalq münasibətlər sistemində yeni dünya düzəninin formalaşdırılmasına istiqamətlənmiş səylər daha da güclənməyə başladı. Yeni dünya düzəninin formalaşdırılmasının ən mühüm istiqamətlərindən biri və daha çox prioriteti kimi səciyyələnən qloballaşma prosesləri artıq nəinki beynəlxalq münasibətlər sistemində və bütövlükdə dünya iqtisadiyyatında yeni problemlər doğurmaqla yanaşı, eyni zamanda köhnə problemlərin yeni keyfiyyət müstəvisində aktuallaşmasına gətirib çıxardı.

Məlum həqiqətdir ki, qloballaşma əmtəələrin, kapitalın, texnologiyaların, işçi qüvvəsinin sərbəst hərəkətini özündə əks etdirməklə ölkələr arasındakı iqtisadi sərhədlərin tam mənası ilə liberallaşdırılmasını nəzərdə tutur. Doğrudur, qloballaşma prosesi nəticə etibarilə dövlətlərin üstqurumuna çevrilmiş və demək olar ki, tam mənası ilə dünyada vahid dünya hökumətinin yaradılmasına istiqamətlənmiş səylərin gücləndirilməsini özündə əks etdirsə də, bütövlükdə bu prosesin özünəməxsus cəhətləri də mövcuddur. Nəticə etibarilə bu, ölkələrin iqtisadi müsəqilliyinə bu və ya digər şəkildə təhdidlər doğursa da, lakin əmtəələrin sərbəst hərəkəti fonunda hətta inkişaf etməkdə olan ölkələrin əhalisinin ərzaq məhsulları ilə təmin edilməsində demək olar ki, müəyyən imkanlar yaradırdı. Hətta dünyanın inkişaf etməkdə olan ölkələri belə bir iddiaya əl atmaqdan belə çəkinmirdilər ki, hətta bütün problemlərin həllində qloballaşma başlıca açar vasitə kimi səciyyələnir.

2020-ci ilin əvvəlindən etibarən Çində başlayan və qısa zaman kəsiyində bütövlükdə Avropanı və sonradan isə ABŞ və dünyanın bütün ölkələrini tam mənası ilə əhatə dairəsinə alan koronavirus pandemiyası dünyada köklü dəyişikliklərin başlanmasına gətirib çıxardı. Əslində bu dəyişikliklər fonunda baş verən proseslərin güclənməsi belə bir iddia da irəli sürməyi mümkünləşdirdi ki, qloballaşma koronovirus pandemiyasının səddini keçə bilmədi. Daha doğrusu, qloballaşma pandemiya testindən qalib çıxa bilmədi və demək olar ki, qloballaşma sinifdə qaldı.

Ümumilikdə qloballaşmanın fundamental baza pastulatlarına tamamilə zidd olan qapanma prosesləri əslində dünya ölkələri arasındakı sərbəst bazar əlaqələrinin və hətta mülki vətəndaşların nəinki ölkələrarası səyahətinə, evdən kənara çıxmamasına belə gətirib çıxardı. Qeyd etmək lazımdır ki, koronavirus probleminin yaranması pandemiya kimi səciyyələnsə də bütövlükdə dünya tarixində bu tip çoxsaylı pandemiyalar müşahidə olunmuşdur və bu pandemiyalar xronologiyasında demək olar ki, koronavirus prosesləri nə birinci, nə də sonuncu deyildir. Lakin müasir dünyanın demək olar ki, qarşısının alınmasında aciz qaldığı və davamlı olaraq yeni dalğalarının sürətlə sıçradığı bir şəraitdə təbii ki, beynəlxalq münasibətlər sistemində son zamanlar daha çox populyarlaşmış qloballaşma prosesi pandemiyanın birinci və ikinci raundundan məğlub ayrıldı.

Nəzərə almaq lazımdır ki, postpandemiya şəraitində yeni dünya düzəni formalaşacaqdır və bu prosesdən qaçış demək olar ki, mümkün deyildir. Odur ki, məhz bu iddiaların sonunda tamamilə haqlı olaraq belə qənaətə gəlmək mümkündür ki, doğrudan da XX əsrin sonlarında sürətlə vüsət alan qloballaşma prosesi yeni dünya düzəninin formalaşdırılmasında müəyyən mərhələləri uğurla keçməsinə baxmayaraq demək olar ki, yeni dünya düzəninin formalaşmasının senari müəlliflərinin və rejissorlarının qarşıya qoyduğu məqsədə tam mənası ilə nail ola bilməmişdir. Məhz elə bu səbəbdən yanaşdıqda əslində pandemiya prosesləri və koronavirus şoku yeni dünya düzəninin formalaşdırılmasında alternativ vasitələrdən biri kimi dəyənləndirilə bilərdi. Belə ki, hətta pandemiya prosesləri başlamazdan təxminən 5-10 il əvvəl yeni dünya düzəninin belə desək ideya müəllifləri olan Bill Qeyts və Rokfeller hesab edirdilər ki, dünyanın idarə olunması üçün güclü silahlı cəbbəxanaların formalaşdırılmasına ehtiyac yoxdur. Zaman gələcək ki, dünya bütövlükdə bir bakteriyanın, bir virusun hesabına bioloji müharibə həddinə çatacaq və bu baxımdan dünyada yeni düzən formalaşacaqdır.

Beləliklə, tam mənası ilə əslində həmin ideya müəlliflərinin fikirlərinə istinadən belə qənaətə gəlmək olar ki, doğrudan da pandemiya tam mənası ilə yeni dünya düzəninin formalaşdırılmasında alternativ həlli olmayan bir vasitəyə çevrilmişdir. Dünyanın bütün siyasi-iqtisadi dairələrində heç bir kəs tərəfindən qəti şəkildə iddia oluna bilməz ki, koronovirus infeksiyası Çində yayılmasına baxmayaraq o hansı məqsədlərə xidmət etmək üçün yaradılmışdır.

Təsadüfi deyildir ki, ABŞ-ın Çinə olan borclarının qaytarılmaması baxımından pandemiya kifayət qədər əlverişli bir fürsətə çevrilmişdir. Bundan əlavə koronavirus infeksiyası yayılana qədər demək olar ki, artıq dünyada Çin iqtisadiyyatı kifayət qədər güclü bir təhdidə çevrilmiş və dünya bazarında əhəmiyyətli rola və xüsusi çəkiyə mailk olmuşdur. Məhz koronavirus infeksiyasının Çindən bütün dünyaya sıçraması son nəticədə gələcəkdə və elə proseslərin hazırkı dönəmlərində belə Çini siyasi-iqtisadi baxımdan məzəmmət etməyə yetərdi. Vahid və qüdrətli dünya düzəninin formalaşlmasında tək əngəl Çin deyildi. Nəzərə almaq lazımdır ki, kifayət qədər siyasi və iqtisadi basqıya baxmayaraq hələlik davam gətirən və gücü kifayət qədər yetərli olan Rusiya və İran da mövcud idi.

Elə maraqlı məqamlardan biri ondan ibarət idi ki, hələ on illərlə bundan əvvəl Türkiyə dövləti tərəfindən Turan ideayası irəli sürüləndə bu ideyaya qarşı ilk dəfə öz mənfi münasibətini bildirən vahid dünya gücü nəhayət hazırkı pandemiya şəraitində Turan ideyasının formalaşmasına kifayət qədər loyal münasibət göstərməkdədir. Bütün bunlar isə onu deməyə əsas verir ki, əslində Turan ideyasına Qərb tərəfindən loyal münasibət göstərilməsi son nəticədə Çinin qarşısında böyük bir ərazi və əhali çəmbəri çəkmək niyyətindədir.

Hansı formada mövcud olmasından asılı olmayaraq artıq koronavirus pandemiyası reallıqdır. Bu reallıq öz bərabərində kifayət qədər çoxsaylı sosial-iqtisadi və siyasi problemlər doğurmaq-

dadır. Bu aspektdən yanaşdıqda bəşəriyyətin üzləşdiyi ən köhnə problemlərdən biri olan əhalinin qidalanması və ərzaq təhlükəsizliyi məsələləri koronavirus pandemiyası şəraitində özünü dah çox aktuallığa çevirməkdədir.

COVİD-19 pandemiyası artıq 2019-cu ilin sonlarından etibarən dünyada kifayət qədər sürətlə yayılmış və sözün həqiqi mənasında dünya təsərrüfat əlaqələrini iflic vəziyyətinə salmışdır. COVİD-19 pandemiyası qlobal aspektdə ərzaq təhlükəsizliyi və qidalanma sektoruna da əhəmiyyətli dərəcədə destruktiv təsir göstərmiş və dünya kənd təsərrüfatının inkişafında böhranlı situasiyalar doğurmuşdur. Koronovirus pandemiyası bütövlükdə qlobal səviyyədə aqrar ərzaq kompleksinə əhəmiyyətli dərəcədə mənfi təsir göstərmiş və əhalinin ərzaq məhsulları bazarına çıxışı inkanlarına təhdidlər doğurmuşdur.

Karantin rejimi tətbiq edilən ölkələrdə nəinki ərzaq məhsullarının hərəkətilə bağlı şəbəkələr ciddi zərərli təsirlərə məruz qalmış, eyni zamanda bütövlükdə qlobal səviyyədə səhiyyə sistemi demək olar ki, çöküş həddinə yaxınlaşmışdır və eyni zamanda bu qəbildən olan destruktiv tendensiyalar dünya iqtisadiyyatında əhəmiyyətli tənəzzül meyillərini də doğurmuşdur. Pandemiyanın ən başlıca təzahürləri ilk növbədə muzdlu işçilərin gəlirlərinin aşağı düşməsinə səbəb olmaqla yanaşı, dünya ərzaq bazarında qida məhsullarının qiymətlərinin yüksəlməsinə səbəb olmuş və bütün bunlar son nəticədə XXI əsrin əvvəllərində kövrək şəkildə də olsa inkişaf etməkdə olan davamlı inkişaf meyillərinə mənfi təsir göstərmişdir. Pandemiya prosesləri kifayət qədər qeyri-stabil xarakter daşıyır və bu baxımdan qeyri-müəyyənliyi ilə xarakterizə olunur.

**Ərzaq təhlükəsizliyi və qidalanma sektoruna COVİD-19 pandemiyasının təsiri**

Qeyd etmək lazımdır ki, COVİD-19 pandemiyası ərzaq məhsulları bazarına, o cümlədən aqrar ərzaq kompleksinə xüsusilə kənd təsərrüfatı və ərzaq məhsullarının daşınması və eləcə də həmin məhsullara olan tələbatın ödənilməsi baxımından mövcud və potensial təhlükə mənbəyinə çevrilmişdir.

İstər milli, istərsə də qlobal səviyyədə ərzaq məhsullarının daşınması şəbəkəsinin fasiləsiz fəaliyyətinin təmin edilməsi bütövlükdə əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində əhəmiyyətli rol oynayır. Odur ki, dünya iqtisadiyyatına COVİD-19 pandemiyasının neqativ təzahürləri ilk növbədə ərzaq bazrlarına məhsulların çatdırılması, eləcə də ölkələrarası əməkdaşlıq proseslərinin dayanması ilə sıx əlaqədardır. Adı çəkilən pandemiya dünya iqtisadiyyatının bütün sahələrində olduğu kimi kənd təsərrüfatı və aqrar ərzaq kompleksində də məşğulluğun təmin edilməsinə öz mənfi təsirini göstərmişdir.

Məlum həqiqətdir ki, XXI əsirin son iki onillikləri ərzində ümumi məşğulluğun sturukturunda kənd təsərrüfatının xüsusi çəkisinin təxminən 40,2%-dən 26,8%-ə qədər aşağı düşməsinə baxmayaraq bütövlükdə dünya üzrə təxminən 1 milyarddan çox əhali bu sahədə öz məşğulluğunu təmin edirdi. Dünyanın bir sıra ölkələrində, o cümlədən inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatı ümumi daxili məhsulun təxminən 2/3 hissəsinə qədər paya malik idi. Kənd təsərrüfatı, aqrar ərzaq kompleksi xüsusilə Afrika və Asiya ölkələrində məşğulluğun təxminən müvafiq olaraq 49% və 30,5% paya malik idi. Kənd təsərrüfatı xüsusilə qadınların məşğulluğunun təmin edilməsində əhəmiyyətli rol oynayırdı. Belə ki, inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatında çalışan işçi qüvvəsinin təxminən 41,9%-ni qadınlar təşkil edirdi [4].

Yuxarıda qeyd etdiyimiz kimi, dünya səviyyəsində məşğulluğun sturukturunda kənd təsərrüfat məhsulları istehsalının xüsusi çəkisinin azalmasına baxmayaraq, xüsusilə inkişaf etmiş ölkələrdə kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi hesabına dünya üzrə məhsul istehsalının artımı müşahidə edilmişdir. Dünyanın inkişaf etmiş ölkələrində kənd təsərrüfatı istehsalının intensivləşdirilməsi və bu sahəyə qoyulan investisiya qoyuluşlarının artmasının nəticəsində, eləcə də urbanizasiya və əhailinin hər nəfərinə düşən gəlirlərin artması son nəticədə kənd təsərrüfatında yeni işçi qüvvəsinin yaradılması ilə də müşahidə olunurdu [5].

Adı çəkilən sahədə iş yerlərinin yaradılması xüsusilə kənd təsərrüfatı məhsullarının emalı, marketinq və məhsulların daşınması və inftasturuktur sistemində təmin edilmişdir. Koronavirus pandemiyası xüsusilə insanlar arasında ünsiyyət zamanı daha çox şiddətlənir və bu da təbii ki, hər bir

dövlət tərəfindən “evdə qal” kampaniyasının reallaşdırılmasına istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsi ilə xarakterizə olunur. Problemə məhz bu qəbildən yanaşdıqda bütünlükdə kənd təsərrüfatı və aqrar ərzaq məhsullarının əhaliyə çatdırılması kimi sahələrdə müəyyən gərginliklər müşahidə edilir.

Doğrudur, bir sıra ölkələrdə kənd təsərrüfatı məhsullarının daşınması və istehlakçılara çatdırılması sahəsində problemin aradan qaldırılması ilə bağlı zəruri tədbirlər həyata keçirilir. Lakin onu da nəzərə almaq lazımdır ki, ərzaq məhsullarının idxalı hesabına ərzaq məhsullarına olan tələbatın ödənilməsini təmin edən ölkələrdə bütün bunlar kəskin ərzaq çatışmazlığının yaranmasına və əhalinin müəyyən təbəqələrinin, xüsusilə aztəminatlı təbəqələrinin ərzaq problemi ilə üzləşməsinə gətirib çıxarmışdır. Xüsusilə aclıq və doyunca qidalanmamaq son nəticədə adı çəkilən virusun daha da inkişaf etməsinə gətirib çıxarır və bütün bunlar eyni zamanda qlobal səviyyədə ərzaq təhlükəsizliyinin təmin edilməsində kəskin və əzici təhdidlər doğurur.

Dünya səviyyəsində COVİD-19 pandemiyasının yayılması xarakterinə münasibətdə qeyri-müəyyənliyin hakim mövqe tutması bütövlükdə ölkəlkərin təcrid və fiziki məsafə saxlama siyasətinə üstünlük vermələrinə səbəb olur. Ümumiyyətlə, pandemiyanın yayılması statistikasında artımın müşahidə edilməsi dünya ölkələrinin kəskin rejimə keçilməsini obyektiv zəruriyyətə çevirir. Məhz belə bir şəraitdə isə müəssisələrin fəaliyyətinin dayandırılması halları baş verir. Xüsusilə ictimai-iaşə sektorunun,kafelərin,restoranların, şadlıq evlərinin bağlanması, eləcə də bütövlükdə iqtisadiyyatda məhsul istehsalını həyata keçirən qurumların fəaliyyətinin dayandırılması halları son nəticədə dünyada iqtisadi aktivliyin kəskin şəkildə aşağı düşməsinə səbəb olur. Ümumiyyətlə, koronavirus pandemiyası öz bərabərində çoxsaylı sosial - iqtisadi problemlər doğurmuşdu və həmin problemlərə aşağıdakıları şamil etmək olar:

- cəmiyyətdə demoqrafik problemlərin yaranması;
- müəssisələrin fəaliyyətinin dayanması nəticəsində əmək qabiliyyətli əhalinin işsizlik səviyyəsinin artması;
- miqrantların işlə təmin edilməsində problemlərin yaranması və nəticə etibarilə miqrantlar tərəfindən öz ölkələrində yaşayan ailə üzvlərinə göndərilən pul gəlirlərinin həcminin azalması;
- ərzaq məhsullarının ölkələrarası daşınma proseslərində çoxsaylı problemlərin yaranması;
- sahibkarlıq qurumlarının və həmin qurumlarda fəaliyyət göstərən əmək qabiliyyətli işçilərin gəlirlərində itkilərin baş verməsi;
- cəmiyyətdə gəlirlərin səviyyəsi baxımından qeyri-bərabərliyin artması;
- aztəminatlı əhali təbəqələrinin sosial müdafiəsində problemlərin yaranması;
- istər yerli və istərsə də dünya bazarlarında ərzaq məhsullarının qiymət səviyyəsində artım meyillərinin artmasının müşahidə olunması;
- iqtisadiyyatda əmək məhsullarının səviyyəsinin aşağı düşməsi fonunda məhsul istehsalının həcminin azalması və eləcə də mülkiyyət vəziyyətindən asılı olmayaraq təsərrüfat subyektlərinə maddi-texniki resurslara olan tələbatın ödənməsində çoxsaylı problemlərin müşahidə olunması.

COVİD -19 pandemiyası ilə əlaqədar qlobal səviyyədə ərzaq təhlükəsizliyinə yaranan təhdidlər aşağıdakı sxemdə öz əksini tapmışdır.

Məlum olduğu kimi, COVİD-19 pandemiyasından qorunmağın ən mühüm mümkün vasitələrindən biri insanlar arasındakı təmasların məhdudlaşdırılmasıdır. Məhz bunun nəticəsi olaraq ayrı-ayrı ölkələr tərəfindən qapanmalar həyata keçirilir və bu da ilk növbədə insanların kütləvi şəkildə toplaşdıqları tədbirlərin məhdudlaşdırılmasını nəzərdə tutur. Bu baxımdan şadlıq evlərinin və eləcə də yas mərasimlərinin dayandırılması, idman oyunlarının dayandırılması və bu kimi təzahürlər ilk növbədə adı çəkilən pandemiyanın qarşısının alınmasına istiqamətlənmiş tədbirlərdən biri hesab olunur.

Nəzərə almaq lazımdır ki, COVİD -19 pandemiyası başlanandan bu vaxta qədər dünyanın əksər ölkələrində şadlıq sarayları öz fəaliyyətini dayandırmış və insanların ailə qurması ilə bağlı kütləvi törənlər demək olar ki, məhdudlaşdırılmışdır. Bu proses ilk növbədə əhalinin təbii artımının qarşısının alınmasında da müəyyən vasitə kimi çıxış edir. Bütün bunlar isə son nəticədə

cəmiyyətdə demoqrafik problemlərin yaranmasına səbəb olur. Yəni insanların ailə qurmaması fonunda təbii ki, növbəti illərdə cəmiyyətdə yeni doğulma hallarının məhdudlaşdırılması halları baş verir ki, bu da sonrakı onilliklərdə demoqrafik problemlərin kəskin şəkildə müşahidə olunmasına gətirib çıxarır.

***Sxem***
***COVİD-pandemiyası ilə əlaqədar qlobal səviyyədə ərzaq təhlükəsizliyinə yaranan təhdidlər***

Kənd təsərrüfatı məhsulları istehsalında




COVİD-19 pandemiyasının doğurduğu ən böyük fəsadlardan biri də əmək ehtiyatlarının istifadəsi sahəsində təhdidlərin yaranmasıdır. Daha doğrusu, müəssisələrin öz fəaliyyətini dayandırması nəticə etibarı ilə əmək ehtiyatlarının məşğulluğunun təmin edilməsində kəskin problemlər yaradır və bu da etibarlı əhali məşğulluğunun təmin edilməsinə mənfi təsir göstərməklə yanaşı, eyni zamanda əhalinin gəlirlərinin aşağı düşməsinə də səbəb olur. “Evdə qal” kampaniyası çərçivəsində ciddi qapanmalar iqtisadi aktivliyin aşağı düşməsinə səbəb olur və bu da bütövlükdə qlobal səviyyədə iqtisadi artımın zəifləməsinə öz təsirini göstərir.

İqtisadi fəallığın zəifləməsi fonunda qlobal səviyyədə dünya iqtisadiyyatında müşahidə olunan tənəzzül meyilləri ilk növbədə inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatına öz mənfi təsirini göstərir. Təbiidir ki, dünya iqtisadiyyatında baş verən böhran ilk növbədə ölkələrin dövlət büdcəsinin

gəlirlərinin həcminin aşağı düşməsinə və eləcə də ölkələrdə ümumi daxili məhsulun həcminin azalmasına səbəb olur. Qloballaşma prosesinin ən mühüm üstünlüklərindən biri ilk növbədə əmək ehtiyatlarının ölkələrarası sərbəst hərəkətinin təmin edilməsi ilə bağlı olmuşdur. Bu baxımdan miqrantların həcminin artması qloballaşma üçün xarakterik cəhətlərdən biri idi. İnkişaf etməkdə olan ölkələrdə yaşayan əmək qabiliyyətli əhalinin əhəmiyyətli hissəsi məhz öz məşğulluğunu inkişaf etmiş ölkələrin iqtisadiyyatında tapırdı. Koronavirus pandemiyası şəraitində isə dünya iqtisadiyyatında böhranlı meyillərin davam etməsi, eləcə də müəssisələrin öz fəaliyyətini dayandırması miqrantların da əmək fəaliyyətinin zəifləməsinə və eləcə də miqrant fəaliyyətindən əldə olunan gəlirlərin azalmasına gətirib çıxarır.

Elə ölkələr mövcuddur ki, həmin ölkələr öz büdcə gəlirlərinin təxminən yarıya qədərini miqrant fəaliyyətindən əldə etdikləri gəlirlər hesabına formalaşdırırlar. Xüsusilə Orta Asiya respublikalarında, eləcə də Hindistanda, Çində və Banqladeşdə və digər inkişaf etmiş ölkələrdə iş axtaran vətəndaşların gəlirlərinin aşağı düşməsi məhz həmin ölkələrdə sosial-iqtisadi çətinliklərin və problemlərin baş qaldırmasına səbəb olur. Məlum həqiqətdir ki, miqrantlar öz gəlirlərinin əhəmiyyətli hissəsini öz ölkələrində yaşayan ailələrinin yaşam şərtlərinin yaxşılaşdırılmasına yönəldirlər. Koronavirus pandemiyası şəraitində isə onların öz ölkələrinə göndərdikləri gəlirlərin həcmində dayanmalar müşahidə edilir ki, bu da həmin miqrant əhalinin öz ölkələrinin dövlət büdcəsində müəyyən problemlər yaranmasına gətirib çıxarır. Xüsusilə aztəminatlı əhali təbəqələrinin sosial müdafiəsinin təmin edilməsi ilə bağlı dövlətin üzərinə kəskin yüklər düşür. Müəssisələrin fəaliyyətinin dayanması fonunda dövlət büdcəsinə daxil olan vergilərin həcminin azalmasına öz təsirini göstərir. Qlobal səviyyədə ərzaq təhlükəsizliyinin təmin edilməsinə koronavirus pandemiyası əhəmiyyətli dərəcədə mənfi təsir göstərir. Xüsusilə əmtəələrin daşınması şəbəkəsində problemlərin yaranması məhz ölkələrarası iqtisadi əlaqələrin kəskinləşməsinə və hətta istər quru, istər hava, istərsə də su nəqliyyatında boşdayanmaların yaranmasına səbəb olur. Vəziyyəti kəskinləşdirən məqamlardan biri də ondan ibarətdir ki, bütün bunlar dünya bazarında neftin qiymətinin aşağı düşməsinə də səbəb olur. Bu proseslərin yaranmasının ən başlıca səbəblərindən biri ölkələr arasında iqtisadi əlaqələrin kəsilməsi və eləcə də hava, quru və su nəqliyyatının demək olar ki, tam mənası ilə iflic vəziyyətə düşməsi ilə bağlıdır.

Doğrudur, bəziləri hesab edə bilərlər ki, dünyanın əksər ölkələrində kənd təsərrüfatı və ərzaq məhsullarının daşınmasına bu və ya digər şəkildə icazə verilir. Lakin onu da nəzərə almaq lazımdır ki, bu cür icazələr əvvəlki ənənəvi daşınma ilə müqayisədə müəyyən fərqlərə malikdir. Bu fərqlər də son nəticədə qiymətlərin səviyyəsinin yüksəlməsinə gətirib çıxarır. Bundan əlavə ərzaq bazarlarında bir sıra hallarda keyfiyyətsiz məhsulların mövcudluğu və eyni zamanda qiymətlərin səviyyəsinin artımı da müşahidə edilməkdədir. Vəziyyəti kəskinləşdirən məqamlardan biri də ondan ibarətdir ki, kafelərin, restoranların və digər ictimai-iaşə müəssisələrinin və eləcə də şadlıq saraylarının bağlanması son nəticədə tez xarab olan məhsullara tələbin azalmasına da gətirib çıxarır. Xüsusilə süd məhsullarının, tərəvəz məhsullarının eyni zamanda toplanması imkanları kifayət qədər məhdud olan məhsullara olan tələbin həcminin azalması bütövlükdə kənd təsərrüfatında iqtisadi dayanıqlılığın pozulmasına, bundan əlavə iqtisadi aktivliyin tam mənası ilə məhdudlaşmasına öz təsirini göstərir.

Bir sıra ölkələrdə fermerlər heç də tam mənası ilə yetərli anbar təsərrüfatlarına malik deyillər. Kənd təsərrüfatında soyuducu qurğularla təmin edilmiş anbar təsərrüfatlarının olmaması fermerlər tərəfindən istehsal edilən məhsulların satışında problem yarandığı təqdirdə onların təsərrüfat ilini zərərlə başa çatdırmasına gətirib çıxarır.

Beləliklə, COVİD -19 pandemiyası ilk növbədə kənd təsərrüfatında əmtəəlik səviyyəsinin aşağı düşməsinə səbəb olmaqla beynəlxalq ticarət kanalları ilə məhsulların hərəkət imkanlarını məhdudlaşdırmışdır.

Koronavirus pandemiyasının kənd təsərrüfatına əhəmiyyətli dərəcədə mənfi təsiri ilk növbədə onunla sıx bağlıdır ki, karantin tədbirləri nəticəsində demək olar ki, sərhədlərin tam mənası ilə bağlanması, xüsusilə kənd təsərrüfatı məhsullarını xaricə ixrac edən fermerlərin gəlirlərində azal-

maların yaranmasına gətirib çıxarmış, eyni zamanda xüsusilə tez xarab olan məhsulların istehsalçıları olan sahibkarların daha çox zərərlə üzləşməsi halları müşahidə edilmişdir. Bundan əlavə dünyanın çoxsaylı ölkələri öz ərzaq təminatı problemlərini demək olar ki, tam mənasilə ərzaq məhsullarının idxalı hesabına ödəyirdilər. Daha doğrusu, ərzaq təhlükəsizliyinin təmin edilməsi ilk növbədə xaricdən ərzaq məhsullarının gətirilməsindən bilavasitə asılı olmuşdur. Məhz belə bir şəraitdə sərhədlərin bağlanması və digər bu kimi zəruri tendensiyalar həmin ölkələrin əhalisinin aclıq və doyunca qidalanmaması təhlükəsini yaşamasına gətirib çıxarır.

Bundan əlavə dünyanın inkişaf etmiş ölkələrində xüsusilə əmək tutumunun yüksək olduğu istehsal sahələrində daha çox miqrantların işlə təmin olunması halları müşahidə edilirdi. Koronavirus pandemiyası şəraitində isə miqrantların demək olar ki, elə proseslərin ilkin gedişində öz ölkələrinə qayıtması həmin sahələrdə əmək ehtiyatlarından istifadəsi ilə bağlı problemlərin yaşanmasına səbəb olmuşdur.

Qeyd etdiyimiz kimi, qlobal iqtisadi böhran ilk növbədə əhalinin gəlirlərinin səviyyəsinin aşağı düşməsinə gətirib çıxarmışdır. Koronavirus pandemiyası dünya ölkələrində maliyyə bank sektorunun da çökməsinə səbəb olmuş və qlobal miqyasda gəlirlərin səviyyəsinin azalmasına öz təsirini göstərmişdir. Koronavirus pandemiyası şəraitində əhalinin gəlirlərinin səviyyəsinin aşağı düşməsinin özünəməxsus səbəbləri mövcuddur. Doğrudur, etiraf etmək lazımdır ki, iqtisadiyyatın bu və ya digər sahələrində rəsmi fəaliyyət göstərən işçilərə dövlət büdcəsi tərəfindən müəyyən ödənişlər təklif edilir və həcmindən asılı olmayaraq bu və ya digər şəkildə problemin qarşılanmasında istifadə edilə bilir. Lakin nəzərə almaq lazımdır ki, dünyanın elə ölkələri mövcuddur ki, həmin ölkələrdə iqtisadiyyatın qeyri-formal sektoru da kifayət qədər çoxsaylı işçı qüvvəsi ilə təmin olunur və həmin sahələrdə məhz əhalinin məşğulluğu təmin edilir. Təkcə bir faktı qeyd etmək olar ki, Latın Amerikasında iqtisadiyyatın qeyri-formal sektorunda işçi qüvvəsinin təxminən 50%-dən yuxarı hissəsi məşğul olur.

Beynəlxalq Əmək Təşkilatının məlumatına görə təkcə 2020-ci ilin ikinci rübündə dünya üzrə 400 milyondan çox işçi qüvvəsinin itirilməsi halları müşahidə edilmişdir. Inkişaf etməkdə olan ölkələrdə bu hallar daha çöx özünü büruzə vermişdir. 2020-ci ildə dünya iqtisadiyyatında artım meyillərinin kəskin şəkildə məhdudlaşmasının nəticədidir ki, dünya iqtisadiyyatında 5-8%-ə qədər azalma müşahidə edilmişdir. Bu cür azalma dünya üzrə miqrantların pul gəlirlərinin həcminə də öz təsirini göstərmişdir. Belə ki, inkişaf etməkdə olan ölkələrdə maliyyələşmənin xarici mənbələri təxminən 20%-ə qədər aşağı düşmüşdür.Dünya bankının qiymətləndirmələrinə görə koronavirus pandemiyasının birbaşa nəticəsi kimi 2020-ci illərin sonlarında kəskin yoxsulluq həddində yaşayan insanların sayı təxminən 71-100 mln nəfər əhali həddində artmışdır.

Hazırda bilavasitə pandemiyanın nəticələrinə görə təxminən 135 mln nəfərdən çox insan kəskin aclıq problemi ilə üzləşməkdədir. Kəskin aclıq problemi ilə üzləşən əhalinin təxminən 45 mln nəfəri Asiya və Afrika ölkələrinin payına düşür. Gəlirlərinin səviyyəsinin məhdudlaşdırılması ərzaq məhsullarına olan tələbin aşağı düşməsinə gətirib çıxarmışdır ki, bu da öz növbəsində aqrar ərzaq kompleksində çalışan işçi qüvvəsinin sayının təxminən 451 mln nəfərə qədər məhdudlaşması və eləcə də dünya üzrə formal rəsmi sektorda çalışan işçilərin 35%-nin ixtisar olunmasına gətirib çıxarmışdır.

Koronovirus pandemiyası cəmiyyətdə qeyri-bərabərliyin artmasına, o cümlədən gəlirlərin bölüşdürülməsindəki bərabərsizlik səviyyəsinin yüksəlməsinə səbəb olmuşdur. COVİD -19 pandemiyası qloballaşma şəraitində mövcud olan sosial bərabərsizliyin daha da dərinləşməsinə gətirib çıxarmışdır. Ərzaq təhlükəsizliyi probleminin özünü kəskin şəkildə büruzə verməsi son nəticədə yoxsulluq həddində yaşayan əhalinin sayının artmasına gətirib çıxarmışdır ki, bu da ilk növbədə əhalinin aztəminatlı təbəqələrinin tibbi xidmətlərə olan çıxış imkanlarının praktik olaraq məhdudlaşmasına səbəb olmuşdur.

Bununla yanaşı, COVİD -19 pandemiyası eyni zamanda təhlükəsiz su mənbələrinə çıxış imkanlarında qeyri-bərabərlik problemlərinin daha da dərinləşməsini şərtləndirmiş və xidmətlərə olan ehtiyacların ödənilməsində qeyri-bərabərlik davam etməkdədir. Bu prosesdən xüsusilə miqrantlar

daha çox əziyyət çəkməkdədir. Təbiidir ki, ölkələr öz əhalisini qida məhsulları ilə təchiz etmək baxımdan və eləcə də sosial xidmətlərə olan ehtiyaclarını ödəmək baxımından problemlərlə üzləşdikləri halda miqrantların bu və ya digər xidmətlərə olan ehtiyaclarının ödənilməsində təbii ki, çoxsaylı problemlər yaranır. Bu ilk növbədə qeyri-formal şəkidə bu və ya digər ölkəyə daxil olan miqrantların həyat şəraitində baş verən problemləri özündə əks etdirir.

Koronavirus pandemiyası ərzaq təhlükəsizliyi sahəsində müxtəlif problemlər doğurmaqla yanaşı, eyni zamanda aztəminatlı əhali koteqoriyalarının sosial müdafiəsi ilə bağlı bu və ya digər proqramların reallaşdırılmasında çətinliklərin yaranmasına səbəb olmuşdur. Karantin tədbirlərinin genişləndirilməsi çərçivəsində dünyanın əksər ölkələrində məktəblərin və uşaq bağçalarının fəaliyyətini dayandırması son nəticədə məktəblilərin qidalanması ilə bağlı proqramların da dayanmasına səbəb olmuşdur və bu da xüsusilə aztəminatlı əhali kateqoriyalarının və eləcə də gəlirlərinin səviyyəsi aşağı olan əhali təbəqələrinin problemlərlə üzləşməsinə səbəb olur. Təsadüfi deyildir ki, koronavirus pandemiyasının dərinləşməsi şəraitində aztəminatlı əhali kateqoriyalarına məxsus olan 370 milyondan çox uşaq məktəbdə qidalanma prosesindən tam mənası ilə məhrum olmuşdur. Eyni zamanda inkişaf etməkdə olan ölkələrdə aztəminatlı əhali təbəqələrinin sosial müdafiəsi istiqamətində proqramların maliyyələşdirilməsinə yönəldilmiş tədbirlərin reallaşdırılması problemlərlə müşahidə olunmuşdur ki, bu da ilk növbədə dövlət büdcəsinin gəlirlərinin daxilolma mənbələrindəki çətinliklərlə bağlı olmuşdur. Nəzərə almaq lazımdır ki, pandemiya şəraitində müəssisələrin fəaliyyəti dayanır və bu da təbii ki, həmin müəssisələrin dövlət büdcəsinə vergi ödənməsi imkanlarını dayandırması ilə müşayiət olunur. BMT-nin müaviq komisiyyalarının qiymətləndirmələrinə görə, təkcə Afrikada səhiyyə sahəsindəki müvafiq xidmətlərin maliyyələşdirilməsi məqsədi ilə 100 milyard dollardan çox vəsait tələb olunur.

COVİD -19 pandemiyası aqrar ərzaq kompleksində də köklü dəyişikliklərin yaranmasında əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Evdə qal kampaniyası və eləcə də karantin tədbirlərinin nəticəsində ərzaq məhsullarının daşınması sturukturunda köklü dəyişikliklər müşahidə edilmişdir ki, bu da ilk növbədə istehlakçıların qidalanmasında keyfiyyət dəyişikliyinin yaranmasında öz təsirini göstərmişdir. Təkcə onu qeyd etmək kifayətdir ki, inkişaf etmiş ölkələrdə əhalinin əksəriyyəti nahar və şam yeməklərini daha çox ictimai-iaşə müəssisələrində, kafe və restoranlarda qidalanmağa üstünlük verirlər. İctimai-iaşə müəssisələrinin, o cümlədən kafe və restoranların fəaliyyətinin dayandırılması son nəticədə istehlakçıların daha çox evdə qida məhsulları hazırlamasına gətirib çıxarmışdır. Eyni zamanda inkişaf etməkdə olan ölkələrdə rəsmi şəkildə fəaliyyət göstərən ərzaq bazarları öz fəaliyyətini dayandırması ilə nəticələnmişdir.Müəssisələrin öz fəaliyyətini dayandırması nəticəsində həmin müəssisələrdə çalışan işçi qüvvəsinin daimi gəlirlərdən məhrum olması son nəticədə onların kənd təsərrüfatı və ərzaq məhsullarını da məhdud həcmdə istehlak etməsinə gətirib çıxarmışdır. Bütün bunlar isə son nəticədə ərzaq bazarlarında əmtəə dövriyyəsinin həcminin məhdudlaşması ilə şərtlənmişdir.

Koronavirus pandemiyası şəraitində supermarketlər istisna olmaqla digər xırda qeyri-rəsmi ərzaq məhsullarının reallaşdırıldığı məntəqələr də öz fəaliyyətini dayandırmaq məcburiyyəti qarşısında qalmışdır. Məhz belə bir şəraitdə əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində daha çox ərzaq məhsullarına çəkilən xərclərin artması müşahidə olunur. Bu isə əhalini, xüsusilə aztəminatlı əhali kateqoriyalarını daha az qida məhsulları istehlak etmək məcburiyyətində qoymuşdur.

Bütün bunlar ərzaq məhsulları istehlakının sturukturunda əhəmiyyətli dəyişikliklərin yaranması ilə müşayiət olunmuşdur. İmkanlı əhali kateqoriyaları istisna olmaqla aztəminatlı əhali kateqoriyalarında istehlakın sturukturunda köklü dəyişiklik baş verməkdədir ki, bu da onların daha az qida məhsulları ilə kifayətlənmələrinə gətirib çıxarır.

Yuxarda qeyd etdiyimiz kimi, koronovirus pandemiyası istər qlobal səviyyədə və istərsə də yerli səviyyədə ərzaq bazarlarında məhsulların qiymətlərində nəzərəçarpacaq tərəddüdlərin yaranmasına səbəb olmuşdur. Koronavirus pandemiyası ilkin dövrlərində demək olar ki, dünyanın əksər ölkələrində kifayət qədər rekord səviyyədə taxıl ehtiyatları formalaşmışdır. Bütün bunların

nəticəsidir ki, pandemiyanın ilkin aylarında xüsusilə taxıl məhsullarının qiymətlərində müəyyən azalmalar müşahidə olunmuşdur. Sonralar karantin tədbirlərinin daha da genişlənməsi və evdə qal kampaniyasının sürətlə davam etməsi nəticəsində ərzaq bazarlarında qiymətlərdə müəyyən tərəddüdlərin yaranması müşahidə edilmişdir. Belə ki, pandemiyanın ilkin dövrlərində ət məhsullarının, eləcə də süd məhsullarının, şəkər və bitki yağının qiymətlərində kəskin azalma müşahidə edilsə də sonralar istər adı çəkilən məhsulların, istərsə də taxıl məhsullarının qiymətlərində tam mənası ilə stabilləşmə müşahidə olunmuşdur.

Xüsusilə 2020-ci ilin yay aylarında pandemiya proseslərinin kəskinləşməsi nəticəsində dünyanın əksər ölkələrində ət və süd məhsulları bazarında təklifin həcminin məhdudlaşması müşahidə olunmuşdur. Məhz belə bir şəraitdə həmin müəssisələrin işləməməsi səbəbindən ət və süd məhsullarının qiymətlərinin artımı özünü büruzə vermişdir.

Araşdırmalar göstərir ki, xüsusilə idxaldan asılı olan ölkələrdə adı çəkilən məhsulların qiymətlərində kəskin artım müşahidə edilmişdir. Məsələn, xüsusilə Venesuella və Hayanada 2020-ci il iyun ayının sonlarından etibarən ərzaq məhsullarının qiymətləri təxminən 50%-ə qədər artmışdır.

Xüsusilə ərzaq məhsullarının, o cümlədən taxıl məhsullarının ixracçılarının öz fəaliyyətini dayandırması nəticəsində bir sıra ölkələrdə, xüsusilə Taylandda, Vyetnamda 2020-ci il aprel ayının ortalarından etibarən taxıl məhsullarının qiymətləri təxminən 10-32% hədlərində atmaqda davam etmişdir. İdxaldan asılı olan ölkələrdə ərzaq məhsullarının yerli qiymətlərinin artması təbii ki, həmin ölkələrin milli valyutasının kursunun da aşağı düşməsinə gətirib çıxarmışdır ki, bu da ilk növbədə dünya iqtisadiyyatında baş verən böhranla əlaqələnmişdir. Xüsusilə az gəlirli əhali təbəqələrinin sosial vəziyyətinin kəskinləşməsinə səbəb olmuş və bütövlükdə həmin ölkələrin ərzaq təhlükəsizliyində köklü təhdidlərin yaranmasına gətirib çıxarmışdır.

Məlum həqiqətdir ki, ərzaq təhlükəsizliyinin təmin edilməsində daha çox taxıl ehtiyatlarının həcminə xüsusi diqqət yetirilir. Bu baxımdan yanaşdıqda pandemiyanın başlanması ərəfəsində, daha doğrusu 2019-cu ilin sonu 2020-ci ilin əvvəlində dünyada taxıl ehtiyatlarının səviyyəsi kifayət qədər yüksək səviyyədə idi. Bu da ilk növbədə dünyanın əksər ölkələrində ərzaqlıq taxıl baxımından qıtlığın olması ehtimallarını tam mənası ilə istisna edirdi. Onu da nəzərə almaq lazımdır ki, 2020-ci ilin əvvəllərində dünya ölkələri tərəfindən koronavirus pandemiyasına qarşı münasibətdə kifayət qədər qeyri-müəyyənlik hökm sürürdü.

Təbiidir ki, cəmiyyətdə bu pandemiyaya qarşı münasibətdə də kifayət qədər birmənalı xarakter daşımırdı. Məhz həmin dövrdə pandemiyanın yayılmasının məhdudlaşdırılması ilə bağlı qabaqlayıcı tədbirlərin görülməsi istiqamətində birmənalı münasibət sərgilənmirdi. Hətta qabaqlayıcı tədbirlərin və antipandemiya siyasətinin həyata keçirilməsi ilə bağlı cəmiyyətdə birmənalı münasibət olmadığı həmin tədbirlərin tətbiqinin miqyası və müddəti ilə də bağlı qeyri-müəyyənlik hökm sürməkdə idi. Xüsusilə 2020-ci ilin yaz aylarında Çində və İtaliyada koronavirus pandemiyasının daha sürətli yayılması, ilk növbədə qabaqlayıcı tədbirlərin iqtisadiyyatın bütün sahələrinə nüfuz etməsi özünü daha çox büruzə verməyə başladı.

Belə ki, xüsusilə kənd təsərrüfatında daha çox əməktutumlu istehsal sahələrində pandemiya proseslərinin zərərli təsirləri özünü büruzə verməyə başladı. Odur ki dünyanın əksər ölkələrində yüksək əmək tutumlu sahələrdə daha çox miqrantlar fəaliyyət göstərir və bu isə daha çox meyvə-tərəvəzçilik sektorlarında özünü büruzə verir. Bundan əlavə, mövsümi situasiyalarda əmək resurslarının qıtlığı səbəbindən əmək tutumlu sahələrdə məhsulun yığılması ilə bağlı proseslərə miqrantlar daha çox cəlb olunur. Dünyanın əksər ölkələrində istər daha çox əməktutumlu və istərsə də əmək tutumu aşağı olan sahələrdə işçi qüvvəsinin cəlb edilməsi ilə bağlı məsələlərə kifayət qədər fərqli yanaşılır. Məsələn, sənayecə inkişaf etmiş ölkələrdə taxıl istehsalında daha çox intensiv texnologiyaların tətbiqi və eləcə də kapital tutumlu qurğulardan istifadə imkanları geniş yayıldığından həmin ölkələrdə taxılçılıqda əmək resurslarından istifadə səviyyəsi kifayət qədər aşağı olur.

Ümumiyyətlə götürdükdə taxılçılıq kənd təsərrüfatının elə bir sahəsidir ki, bu sahə yüksək əməktutumlu hesab edilmir. Üstəlik əlavə etsək ki, inkişaf etmiş ölkələrdə taxılçılıqda daha çox

yüksək texnologiyalı istehsal vasitələrindən istifadə edilir və belə bir şəraitdə konkret olaraq taxılçılıqda əmək resurslarının məhdudluğundan bəhs etmək düzgün olmazdı. Lakin bununla belə dünyanın elə ölkələri mövcuddur ki, məsələn Çində, Qərbi Afrikada və digər ölkələrdə hətta taxılçılıq kimi əmək ehtiyatlarından istifadə səviyyəsi nisbətən aşağı olan sahələrdə əmək ehtiyatlarından daha çox istifadə edilməsi halları özünü büruzə verir.

**Koronavirus pandemiyası şəraitində ərzaq təhlükəsizliyi və kənd təsərrüfatının inkişafında müşahidə olunan meyillər**

Aparılan araşdırmalar göstərir ki, koronavirus pandemiyasının mövcud olduğu son 2 ildə virusun geniş yayılması nəticəsində dünya üzrə məhsul istehsalının həcmi təxminən 8,5 trilyon dollara qədər məhdudlaşmışdır [6].

2021-ci ilin 15 yanvar tarixinə olan məlumata görə dünyada koronavirusdan ölənlərin sayı 2 mln nəfəri ötmüşdür. Bu isə o deməkdir ki, virusa yoluxanların təxminən 36%-ə qədəri dünyasını dəyişib.

Yuxarıda qeyd etdiyimiz kimi, koronavirus pandemiyasının gücləndiyi şəraitdə 2020-ci ildə kəskin aclıq şəraitində yaşayan dünya əhalisinin sayı 49 mln nəfərə çatır ki, bunun da əhəmiyyətli hissəsi Afrika ölkələrinin payına düşür. Tədqiqatçıların hesablamalarına görə pandemiya proseslərinin davamlı xarakter daşıması halında 2030-cu ildə kəskin aclıq şəraitində yaşayan əhalinin sayı 130mln nəfərə qədər yüksələcəkdir [7].

Məlum həqiqətdir ki, koronavirus epidemiyası əhalinin xüsusilə həssas təbəqələrinə, o cümlədən aztəminatlı əhali kateqoriyalarına daha çox təsir göstərmək imkanına malikdir. Problemə məhz bu aspektdən yanaşdıqda belə qənaətə gəlmək olar ki, inkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatında çalışan əhali kateqoriyalarının gəlirlərinin səviyyəsi iqtisadiyyatın digər sahələri ilə müqayisədə mövcud və orta gəlir səviyyəsindən əhəmiyyətli dərəcədə aşağıdır. Hazırda xırda istehsal sahələrində, o cümlədən fermer təsərrüfatlarında və bütövlükdə aqrar ərzaq kompleksi sektorunda təxminən 2 milyard qədər işçi çalışır. Həmin işçilər koronavirus pandemiyası şəraitində bu və ya digər şəkildə iqtisadi problemlərlə üzləşməkdədir. İnkişaf etməkdə olan ölkələrdə kənd təsərrüfatında çalışan işçilərin təxminən 43%-ə qədərini qadınlar təşkil edir.

İnkişaf etməkdə olan ölkələrdə iqtisadiyyatın qeyri-rəsmi sektorları kifayət qədər geniş yayılmışdır və bu sektorların özünəməxsus destruktiv cəhətləri ondan ibarətdir ki, həmin sektor əslində gizli iqtisadiyyatın bu və ya digər şəkildə müəyyən tərkib hissəsini təşkil etməkdədir. Bu isə onunla əlaqədardır ki, adı çəkilən sektorda çalışanlar və sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar demək olar ki, dövlət büdcəsinə vergi ödəmirlər. Məhz bu baxımdan da koronavirus pandemiyası şəraitində çalışan gənclərin iş yerləri qapandığı halda bu və ya digər sosial təminat almaq imkanları da məhdudlaşır.

Koronavirus pandemiyası başlamazdan əvvəl xüsusilə inkişaf etməkdə olan ölkələrdə kənd yerlərində yoxsulluğun səviyyəsi əhəmiyyətli dərəcədə yüksək səviyyədə özünü büruzə verirdi. Məhz bu baxımdan iqtisadiyyatın aqrar ərzaq sektorunda kəndlərin yoxsulluq səviyyəsi yüksək olmaqla yanaşı eyni zamanda kənd əhalisinin tibbi xidmətlərə çıxış imkanları, eləcə də təhsilə çıxış imkanları da məhz aztəminatlılıq səbəbindən əhəmiyyətli dərəcədə aşağı səviyyədədir. Koronavirus pandemiyası şəraitində isə bu proseslər əhəmiyyətli dərəcədə təhdid mənbəyinə çevrilməkdədir.

Koronavirus pandemiyasına məruz qalan insanlar içərisində xüsusilə həssas təbəqələrə diqqət yetirmək lazımdır ki, bu təbəqələr içərisində də hazırda silahlı münaqişələrə cəlb olunmuş ölkələrdə yaşayan təxminən 490 mln nəfərin olduğunu nəzərə almaq lazımdır. İstər silahlı münaqişələr, hərbi siyasi situasiyaların gərginləşməsi və digər bu kimi səbəblərdən təxminən 70 milyona qədər qaçqın müxtəlif düşərgələrdə yaşayır ki, təbii ki onların qidalanması və sosial təminatı koronavirus pandemiyasında kifayət qədər mürəkkəbləşir. Evdə qal kampaniyası və fiziki cəhətdən təcrid siyasəti nəticəsində dünya ölkələrində şəhər əhalisinin vəziyyəti nəzərəçarpacaq dərəcədə mürəkkəb xarakter daşıyır. Koronavirus pandemiyası kəndlərdə olduğu kimi şəhərdə də yoxsulluğun

səviyyəsinin yüksəlməsinə və bütövlükdə hərəkətliliyin məhdudlaşdırılması baxımından yaşayış imkanlarının çətinləşməsinə səbəb olur.

Məlum olduğu kimi kənd təsərrüfatı və ərzaq məhsulları satış bazarlarına topdansatış və pərakəndə satış bazarları, eləcə də ictimai iaşə müəssisələrini, kafe və restoranları, otelləri və digər qurumları şamil etmək olar. Koronavirus pandemiyası şəraitində adı çəkilən strukturların fəaliyyəti demək olar ki, zaman-zaman məhdudlaşdırılmalara məruz qalır. İqtisadiyyatın digər sahələrində olduğu kimi kənd təsərrüfatında da koronavirus pandemiyası əhəmiyyətli şəkildə böhranlı tendensiyaları öz bərabərində gətirirmişdir. Belə ki, Avropanın kənd təsərrüfatı sektoru demək olar ki, tam mənası ilə işçi qüvvəsinin çatışmazlığı ilə üzləşir. Belə ki, sərhədlərin bağlanması nəticəsində, xüsusilə fermerlərin mövsümi işlərdə əmək ehtiyatlarına olan ehtiyacları kəskin şəkildə artır. Xüsusilə məhsulun yığılması dövründə bu hal özünü daha aşkar şəkildə büruzə verir. Xüsusilə mövsümi situasiyalarda Avropanın ən iri kənd təsərrüfatı məhsullarının istehsalçıları olan Fransa, Almaniya, İtaliya və İspaniya, hətta Polşa kimi ölkələr koronavirus pandemiyası şəraitində nəzərəçarpacaq həssas durum yaşayırlar. Təkcə İtaliyada kənd təsərrüfatı məhsullarının yığılması ilə bağlı mövsüm zamanlarında 370 mindən çox daimi və müvəqqəti miqrant işçiyə ehtiyac duyulur. Dünyanın ayrı-ayrı ölkələrində koronavirus pandemiyasına qarşı fərdi qapanma tədbirləri həyata keçirildiyindən demək olar ki, 100 mindən çox kənd təsərrüfatı işçisi İtaliyaya gəlmək imkanlarından məhrum olmuşdur. Fransaya gəlmək imkanları məhdudlaşan miqrantların sayı isə təxminən 200 min nəfərdən çoxdur. Miqrasiya ilə bağlı statistika göstərir ki, Almaniyda hər il 286 mindən çox mövsümi miqrant təkcə meyvə-tərəvəz məhsullarının yığılmasına cəlb olunur. Hal-hazırda demək olar ki, həmin miqrantların yarıya qədəri öz ölkələrində Almaniyaya qayıtmaq imkanlarının məhdudlaşması ilə üzləşməkdədir.

Koronavirus pandemiyası xüsusilə Hindistanda və Banqladeşdə çay plantasiyalarının fəaliyyətinə əhəmiyyətli dərəcədə mənfi təsir göstərmişdir. Koronavirus pandemiyasının qarşısının alınması məqsədi ilə tətbiq edilən təcrid tədbirləri nəticəsində adı çəkilən ölkələrdə çay emalı ilə məşğul olan və çay istehsalını həyata keçirən fabrik və zavodlar fəaliyyətini dayandırmış və bu da ixracdan əldə edilən gəlirlərin əhəmiyyətli dərəcədə azalmasına səbəb olmuşdur. Keniyada təkcə 600 mindən çox kiçik fermer çay istehsalı ilə bağlı fəaliyyət göstərir və həmin fermerlərin cəlb etdiyi muzdlu işçilərin sayı da nəzərəçarpacaq dərəcədə yüksəkdir.Məhz belə bir şəraitdə təcrid tədbirləri nəticəsində işçilərin kənd təsərrüfatına cəlb olunması hallarında problemlər yaranır və bu da fermerlərin daha çox itkilərə məruz qalmasına səbəb olur.

Koronavirus pandemiyası xüsusilə əhalidə psixoloji təzyiqlərin yüksəlməsinə gətirib çıxarmışdır. Bu təzyiqlər ilk növbədə onunla bağlıdır ki, bu prosesin uzunmüddətli davam etdiyi təqdirdə insanların ac qalması və ya bu və digər məhsulların çatışmazlığını hiss etmək məcburiyyətində qalacağı tendensiyasını gücləndirir. Belə bir halda isə insanların daha çox bazarlara, iri supermarketlərə meyillənməsinə gətirib çıxarır ki, xüsusilə də idxalın məhdud xarakter daşıdığı şəraitdə bazarlarda ajiotaj müşahidə olunur ki, bu da qiymətlərin səviyyəsində tərəddüdlərin, xüsusilə dəyişikliklərin və artımların yaranmasını şərtləndirir [8].

**Koronavirus pandemiyasının ərzaq təhlükəsizliyinə və kənd təsərrüfatına təsirinin neytrallaşdırılması ilə bağlı ayrı-ayrı ölkələr tərəfindən tətbiq edilən tədbirlərin qısa xarakteristikası**

Dünyanın ayrı-ayrı ölkələri koronavirus pandemiyasının kənd təsərrüfatına və ərzaq təhlükəsizliyinə təsirinin neytrallaşdırılması və mövcud böhranın zəruri təsirlərinin zəiflədilməsi məqsədilə silsilə tədbirlər həyata keçirirlər. Bu tədbirlərin həyata keçirilməsində başlıca məqsəd ərzaq təhlükəsizliyinin təmin edilməsində müşahidə olunan destruktiv tendensiyaları aradan qaldırmaq, kənd təsərrüfatının inkişafında böhranlı meyillərin qarşısını almaq və eləcə də bu sahədə çalışan işçilərin sosial müdafiəsini nəzərəçarpacaq dərəcədə yüksəltməkdən ibarətdir. Xüsusilə Kanadada ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi və kənd təsərrüfatının inkişafında böhranlı tendensiyaların qarşısının alınması məqsədi ilə kredit qurumları tərəfindən ayrılan vəsaitlərin həcmi 100 mln Kanada dollarına qədər yüksəldilmişdir. Kənd təsərrüfatı əmtəə istehsalçılarına verilən

kreditlərin faiz dərəcələrinin dondurulması siyasəti də tətbiq edilməkdədir. Kənd təsərrüfatı əmtəə istehsalçılarının geniş təkrar istehsal rejimində fəaliyyətini dəstəkləmək məqsədilə əmtəə istehsalçılarına aşağı faiz dərəcəsi ilə 500 mlrd Çin yeni həcmində yeni kredit verilməsi tətbiq edilmişdir. Ölkədə fermerlərin və xırda sahibkarlıq qurumlarının dəstəklənməsi və onların müflisləşməsinin qarşısının alınması məqsədilə kreditlərə tətbiq edilən faiz dərəcələri də 2,5%-dən belə aşağı salınmışdır. Çində kənd təsərrüfatında çalışan işçilərə hər ay 300 yen həcmində müvəqqəti subsidiyaların tətbiqi də həyata keçirilməkdədir. Bundan əlavə ölkədə miqrantların yaşamasını təmin etmək məqsədilə hər bir ailəyə 3000 yen müqabilində pul vəsaiti də verilir.

Koronavirus pandemiyasının kənd təsərrüfatına zərərli təsirlərini neytrallaşdırılmaq məqsədilə Misir hökuməti tərəfindən kənd təsərrüfatında fəaliyyət göstərən əmtəə istehsalçıları 2 il müddətinə vergidən azad edilmişdir. Bundan əlavə kənd yerlərində fəaliyyət göstərən əmtəə istehsalçılarını və eləcə də muzdlu işçiləri koronavirus pandemiyasının zərərli təsirlərindən müdafiə etmək məqsədilə təxminən 100 mindən çox ailəyə ayda 900 Misir funtu həcmində müavinətin ödənilməsi təmin edilmişdir. Eyni zamanda Misirdə qeyri-rəsmi çalışan işçilərin sosial müdafiəsini gücləndirmək məqsədilə 500 Misir funtu həcmində aylıq ödəmələr də tətbiq edilməkdədir.

Salvadorda kənd təsərrüfatının dəstəklənməsi və ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə 800 mln ABŞ dolları həcmində subsidiya tətbiq edilir. Eyni zamanda iqtisadiyyatın qeyri-rəsmi sektorlarında çalışan işçilərə eləcə də 1,5 mln nəfərə ev təsərrüfatının maliyyə vəziyyətini dəstəkləmək məqsədilə ayda 300 ABŞ dolları həcmində müavinət verilməsi təmin edilir.

İtaliyada kənd təsərrüfatında çalışan işçilərin maliyyə durumunu yaxşılaşdırmaq məqsədilə ayda 600 evro dövlət tərəfindən subsidiya ödənilir.Eyni zamanda il ərzində 40 min evrodan aşağı gəlir əldə edən işçilərə ay ərzində vergi ödənilməsi tətbiq edilmədən 100 evro həcmində dotasiyanın ayrılması təmin edilmişdir. Bütövlükdə götürdükdə isə sağlam qida məhsullarına çıxışın təmin edilməsi ilə bağlı sosial-müdafiə proqramlarının həyata keçirilməsi istiqamətində tövsiyə olunan tədbirlərə aşağıdakıları şamil etmək olar:

- regionlar çərçivəsində əhaliyə fövqəladə ərzaq yardımlarının göstərilməsi;
- təminatlı sosial-müdafiə sisteminin dəstəklənməsi;
- adekvat tibbi xidmət sisteminin tətbiqi ilə bağlı tədbirlərin işlənib hazırlanması.

Böhrana məruz qalmış fermerlərin və aqrar ərzaq kompleksində çalışan işçilərin səmərəli müdafiəsini təmin etmək məqsədilə aşağıdakı tədbirləri həyata keçirilməsi məqsədəuyğun sayılır:

- milli qanunvericilik çərçivəsində aqrar ərzaq kompleksində çalışan işçilərin hüquqlarının müdafiəsinin təmin edilməsi;
- ərzaq kompleksində çalışan əhali kateqoriyalarının risklərdən qorunması;
- tibbi xidmətlərə və sosial müdafiə sistemlərinə çıxış imkanları nisbətən zəif olan miqrantların müdafiəsinin təmin edilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi;
- kənd təsərrüfatı əmtəə istehsalçılarının qeyri-müəyyənliklərdən və gəlir itkilərindən qorunması ilə bağlı müdafiə mexanizmlərinin təkmilləşdirilməsi.

Ərzaq idxalından asılı olan ölkələrdə səmərəli müdafiə sisteminin tətbiq edilməsi:

- idxaldan asılı olan ölkələrə ərzaq məhsullarının ixracı ilə bağlı məhdudlaşdırılmanın yumşaldılması;
- orta və uzunmüddətli perspektivdə idxaldan asılı olan ölkələrdə xüsusilə taxıl məhsullarına olan tələbatın ödənilməsi istiqamətində zəruri dəstək göstərilməsi;
- uzunmüddətli perspektivdə taxıl məhsullarının saxlanılması ilə bağlı keyfiyyətli istehsal və infrastruktur güclərinin yaradılması ilə bağlı tövsiyələrin verilməsi.

COVİD -19 pandemiyasının nəticələrinin yumşaldılmasına istiqamətlənmiş koordinasiya istiqamətində zəruri səylərin göstərilməsi:

- COVİD -19 pandemiyasının təsirlərinin yumşaldılması ilə bağlı tədbirlərin əlaqələndirilməsi ilə bağlı səylərin gücləndirilməsi.

## ƏDƏBİYYAT

1. A.F.Abbasov. Ərzaq təhlükəsizliyi. Bakı, 2007. 602 s.
2. E.A.Quliyev. Qida təhlükəsizliyinin gücləndirilməsi problemləri və strateji istiqamətləri. Bakı, 2020. 464 c.
3. İ.H.İbrahimov. Aqrar sahənin iqtisadiyyatı. Bakı, 2016. 655 s.
4. UMBT,World implements social old book dreams for women, 2017.
5. İFAB rural development report, 2016.
6. Global nutrition report, 2020.
7. https:www.Unorq.development.... publication word economic situation and protect as of mid, 2020.
8. Международный институт политики в области питания, “COVID -19: Traderestrictions areworstpossibleresponseto safeguardfoodsecurity”, 27 марта 2020 г.



***Анар Фазиль оглы Аббасов***
***АУК, доктор***
***экономических наук, доцент***


## Влияние пандемии COVID -19 на глобальную продовольственную безопасность и развитие сельского хозяйства


***Резюме***

В статье исследуется влияние пандемии COVID -19 на продовольственную безопасность и развитие сельского хозяйства, а также исследуются угрозы пандемии для продовольственных рынков. Отмечается, что закрытие экономических границ затрудняет перемещение продуктов, приводит к закрытию рабочих мест и снижению доходов. В связи с этим проблемы, вызванные пандемией, широко изучаются в формате продовольственной безопасности и сельского хозяйства.

**Цель исследования** - оценить влияние пандемии COVID -19 на продовольственную безопасность и сельское хозяйство.

**Методология исследования** - в работе использованы сравнительный анализ, логическое обобщение, системный подход, методы анализа и синтеза.

**Практическая значимость исследования** - поскольку пандемия COVID-19 охватывает все аспекты продовольственного рынка, были предприняты усилия для определения воздействия этой пагубной тенденции на продовольственную безопасность и развитие сельского хозяйства.

**Результаты исследования** позволяют сделать вывод о том, что пандемия COVID -19 и ее негативные тенденции оказывают значительное влияние на продовольственную безопасность на всех уровнях.

**Оригинальность и научная новизна исследования** - в статье рассматриваются вредные последствия пандемии COVID -19, а также вопросы продовольственной безопасности как на национальном, так и на международном уровне. Научная новизна статьи – определение приоритетов обеспечения водочной безопасности и развития сельского хозяйства в контексте памдемы.



***Ключевые слова: пандемия, глобализация, глобальная продовольственная безопасность, импорт и экспорт сельскохозяйственной продукции.***

*Anar Fazil oglu Abbasov,*
*ACU, doctor of*
*economics, associate professor*

**Impact of the COVID-19 pandemic on global food security and agricultural development**

***Summary***

The article examines the impact of the COVID-19 pandemic on food security and agricultural development, and examines the threats of the pandemic to food markets. It is noted that the closure of economic borders complicates the movement of products, leads to the closure of jobs and lower incomes. In this regard, the problems caused by the pandemic have been extensively studied in the format of food security and agriculture.

**The purpose of the study** is to assess the impact of the COVID -19 pandemic on food security and agriculture.

**Research methodology** - comparative analysis, logical generalization, systematic approach, analysis and synthesis methods were used in the research work.

**The practical significance of the study** - As the COVID -19 pandemic covers all aspects of the food market, efforts have been made to determine the impact of this harmful trend on food security and agricultural development.

**The results of the study** lead to the conclusion that the COVID-19 pandemic and its negative trends have a significant impact on food security at all levels.

**Originality and scientific novelty of the research** - the article examines the harmful effects of the COVID-19 pandemic, as well as food security issues, both nationally and internationally. The scientific novelty of the article is the definition of priorities for ensuring the security of vodka and agricultural development in the context of the pamdem.

***Key words: pandemic, globalization, global food security, import and export of agricultural products.***